BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
№4 Humanitar elmlər seriyası 2015

UOT 39; 5729

# XIX ƏSRİN İKİNCİ YARISINDA ŞİMALİ AZƏRBAYCANDA MÜQAVİLƏ MÜNASİBƏTLƏRİNƏ DAİR (Tarixi-etnoqrafik baxış)

**T.Q.ƏHMƏDOVA**
*AMEA-nın Arxeologiya və etnoqrafiya İnstitutu*
*axmedova_tarana@mail.ru*

*Məqalə Azərbaycan etnoqrafiyasının az öyrənilmiş problemlərindən birinə – XIX əsrin II yarısında Şimali Azərbaycanda müqavilə münasibətlərinin tarixi-etnoqrafik mövqedən öyrənilməsinə həsr olunmuşdur.*

**Açar sözlər**: borc öhdəlikləri, alqı-satqı müqavilələri, icarə müqavilələri

XIX əsrin ikinci yarısında Azərbaycan xalqının ictimai məişətində müqavilə hüquqi institutu mühüm yer tuturdu. Azərbaycanın Rusiya tərəfindən işğalından sonra əhali arasındakı mülki hüquq münasibətləri əsasən müsəlman hüququ və adətlərlə tənzimlənsə də, tədricən hökumət yeni qanunların köməyi ilə özünün yerli xalqla münasibətlərini nizama salırdı.

Bu dövrdə əhali arasında geniş yayılmış bir sıra konsensual müqavilələr mövcud olmuşdur. Çevik hüquqi formalar olan müqavilələr öz xarakterinə görə müxtəlif ictimai münasibətləri, xalqın həyat tərzini əks etdirirdi. Onlar həm də cəmiyyətin hüquqi cəhətdən tənzimlənməsində böyük rol oynamışdır və oynamaqdadır.

Fransız etnoqrafı Norber Rulan müqavilə münasibətlərinin əsasən liberal cəmiyyətlər üçün xarakterik olmasını, burada birinci yerdə qrupun deyil, fərdin dayandığını bildirir [1, 129]. Müəllif tarixən ayrı-ayrı sosial strukturlara malik olan cəmiyyətlərdə müxtəlif səpkidə müqavilə münasibətlərinin mövcud olması haqqında yazırdı [1, 130].

Fransız etnoqrafı E.Le.Rua sosial strukturun müəyyən səviyyəsində müqavilə münasibətlərinin meydana gəldiyini göstərir. O, müxtəlif tip strukturlara malik cəmiyyətdə hansı növ müqavilə formalarından istifadə edildiyini təyin etmişdir. Tədqiq olunan dövrdə müqavilə xarakterli sənədlər daha çox bir-birinə yaxın olan, öz aralarında minimum əlaqə saxlayan şəxslər arasında razılaşma predmeti dəqiq müəyyənləşdirildikdən sonra tərtib edilirdi [1, 134].

Hüquqi cəhətdən əməkdaşlıq münasibətləri üçün geniş meydan açan müqavilələr əsasən predmetindən və ya funksiyasından asılı olaraq təsnif edilir.

Etnoqraf Elias bu sənədlərin təsnifatında razılaşma predmetinə, E.le Rua isə onların funksiyalardan asılı təsnifatına üstünlük vermişlər [1, 134].

XIX əsrin II yarısında hər iki təsnifata aid olan müqavilə növlərindən istifadə edildiyi məlumdur. Bunlar aşağıdakılar idi:

1. Daşınmaz əmlakın girov qoyulması ilə borc müqavilələri.
2. Alqı-satqı müqavilələri.
3. Torpaq sahəsinin və ya hər hansı mülkiyyətin icarəyə verilməsi haqqında müqavilələr.
4. Bağışlama müqavilələri.
5. Podrat müqavilələri.

Azərbaycanda müqavilə münasibətlərinin meydana gəlməsinədək insanlar öz aralarındakı münasibətləri əsasən inandıqları və etibar etdikləri şəxslərlə, and içməklə – sözlə möhkəmləndirirdilər. İnsanlar həyatın ümumilikləri ilə daha çox bağlı olardısa onların münasibətlərində müqavilə aspektindən daha az istifadə olunurdu.

**Borc müqavilələri.** Bu dövrdə müqavilə münasibətlərinə daxil olan tərəflər tarixən xalqın iqtisadi münasibətlərində istifadə edilən zəmanət, dəbbələmə, daşınmaz əmlakın girov qoyulması, ziyanın ödənilməsi kimi qoruyucu vasitələrdən istifadə edirdilər.

Tədqiqata cəlb edilən arxiv sənədlərindən aydın olur ki, XIX əsrin I yarısında 1000 rubldan çox borc götürənlər əsasən tacirlər, torpaq sahibləri, bəylər olmuşdur [2, 4]. Cəmiyyətin aşağı təbəqələri əsasən az məbləğdə borc götürürdülər. Alınmış borc müqabilində girov qoyulmuş mülkiyyət borc almış şəxsin özünün olmalı idi. Mübahisəli torpaqlardan girov qəbul edilmirdi. Borc alan şəxs girov qoyduğu mülkiyyət haqqında müqavilədə “onu başqasına girov qoymamışam, heç kəsə satmamışam, heç kimə verməmişəm” sözlərini qeyd edirdi [3,1].

Borc alan şəxs borcunu müqavilədə nəzərdə tutulan müddətdə ödəməli idi. Əgər borclu öz borcunu vaxtında qaytarmırdısa, o zaman müqavilənin bitdiyi təqdirdə borc verən məhkəməyə müraciət edir və borcunu tələb edirdi. Bu zaman borclu tərəfindən girov qoyulmuş mülk, torpaq sahəsi və s. hərraca çıxarılır və satışdan alınmış məbləğdən borc verənin borcu ödənilirdi [4, 1]. Borc verən öz borcunu almadan dünyasını dəyişərdisə, borclunun girov qoyduğu mülkün və ya torpaq sahəsinin satışından alınmış məbləğ borc verənin vərəsələrinə ödənilirdi. Əgər borc alan öldükdə, o zaman onun vərəsələri həmin borcu ödəməli idilər.

XIX əsrin I yarısında mövcud torpaq formaları – əsasən mülki-xalisə, mülk torpaqları və tiyul torpaqları feodalın xüsusi mülkiyyəti sayılırdı. Bəylərə məxsus olan mülki-xalisə torpaqları onların tam xüsusi mülkiyyəti idi. Mülk torpaqları ali hakimə xidmət borcu ilə əlaqədar olmayan irsi, tam feodal mülkiyyət forması olub satıla, başqasına güzəştə gedilə və bağışlanıla bilərdi [5, 80].

XIX əsrin I yarısında çar hökuməti Şimali Azərbaycanda özünə dayaq yaratmaq məqsədilə 1846-cı il dekabrın 6-da ağaların və bəylərin hüquqları barəsində fərman verdi. Fərman feodalların həm irsi mülk torpaqları, həm də tiyul torpaqları üzərində tam mülkiyyət hüququnu tanıdı və təsdiq etdi.

**Alqı-satqı müqavilələri.** XIX əsrin II yarısında alqı-satqı müqavilələrindən geniş istifadə olunurdu. Bu dövrdə dövlət kəndlilərinin istifadəsində olan torpaqlar hüquqi cəhətdən dövlət mülkiyyətində idi və kəndlilər ondan mülkiyyətçi kimi deyil torpaq istifadəçiləri kimi istifadə edirdilər.

XIX əsrin 80-ci illərində Şimali Azərbaycan kəndinə kapitalist münasibətlərinin sirayət etməsi nəticəsində torpaq sahələrinin ayrı-ayrı şəxslərin əlinə keçməsi kənddə təbəqələşmə proseslərinin təşəkkül tapmasına, torpaqların varlı kəndlilər, qolçomaqlar və başqalarının əlinə keçməsinə səbəb olmuşdu [5, 81].

Dövlət kəndliləri özlərinin istifadəsində olan həyətyanı, biçin və bağ torpaqlarını öz mülkiyyəti kimi sata bilərdi. Bu zaman alıcı satıcının vergi təhəddüdlərini də öz üzərinə götürürdü. Bu dövrdə bəzən əkin torpaqlarının da istifadə hüququnun satılması hallarına tez-tez rast gəlinirdi. Belə torpaqların satış əməliyyatı bir kəndin üzvləri arasında baş verirdi. Bu zaman torpaqların satılması yazılı müqavilə olmadan faktiki istifadəyə verilmə yolu ilə baş verirdi. Çox vaxt torpaqların əsas alıcıları varlı kəndlilər və bəylər olurdu [5, 81].

Bəzən torpağın alqı-satqısı zamanı alıcıda mülkiyyət kağızı kimi sadə qəbz qalırdı. Bu qəbzdə kəndlinin digər kəndliyə nə qədər və hansı məbləğdə pulun ödənildiyi qeyd olunurdu. Belə qəbzlərlə torpaqdan istifadə və sahiblik hüququ verilirdi ki, onlar pul borc alaraq öz torpaqlarını girov da qoya bilərdilər [5, 80].

Kəndlilər torpaqları öz həmkəndlilərinə, eləcə də şəhərlilərə satırdılar [5, 80]. Varlı zümrələr torpaqları təkcə satın almır, həm də onu zəbt edirdilər. Adətən kənd icmaları şəhər əhalisindən olan varlıların öz pay torpağından istifadə etməsinə mane olmurdular. Kənd varlılarının bir qismi isə kəndli malikanə torpaqlarını və bağlarını öz borclarının hesabına ələ keçirir və ya alırdılar. Bəzən icmanın ümumi istifadəsində olan torpaqlar da satılırdı. Digər təsərrüfat yerlərinin, bostan və əkin sahələrinin özgə əllərə verilməsi isə əslində icma mülkiyyətçiliyi hüququnun pozulması demək idi. Belə ki, bütün dövlət kəndli torpaqları – həyətyanı, bağ və ya təsərrüfat yerləri xüsusi torpaq mülkiyyəti kimi satılırdı. Lakin kəndli torpaqlarının daimi istifadə üçün öz adına möhkəmləndirilməsini göstərən azsaylı sənədlər vardır. Torpaqların şəhərlilərin və varlı kəndlilərin əlinə keçməsi həm məhkəmələrin icra vərəqələri ilə, həm də notariat qaydada xüsusi müqavilələrlə həyata keçirilirdi. Hətta neft şirkətləri tərəfindən kəndlinin pay torpaqlarının qeyr-qanunu tutulması halları da baş verirdi. Dövlət kəndlilərinin torpaqlarının notariat qaydada şəhərlilərin əlinə keçməsi aydın göstərir ki, dövlət özü nəinki kəndlilərə torpaqlarını satmağa icazə verirdi, həm də hüquqi cəhətdən bu alqı-satqının qanuniləşdirilməsinə də göz yumurdu [5, 82].

**İcarə müqavilələri.** XIX əsrin 70-90-cı illərində Şimali Azərbaycanda dövlət torpaqlarının hərracla, icarəyə verilməsi geniş yayılmışdı. Lakin torpağa böyük ehtiyac hiss edən kəndli kütlələri torpaqları birbaşa dövlətdən icarəyə götürə bilmirdilər. Hərracla torpaq icarəsi zamanı dövlətlə torpağı bilavasitə becərən kəndli arasında xüsusi bir vasitəçi olurdu. Kənd təsərrüfatı ilə məşğul olmayan xüsusi şəxslər icarəyə götürdükləri torpaq sahələrini kəndlilərə sub-

icarəyə vermək və bununla da qazanc əldə etmək məqsədini güdürdülər [6, 26].

Bu dövrdə Şimali Azərbaycanın demək olar ki, bütün qəzalarında xüsusi şəxslər tərəfindən icarəyə götürülmüş torpaqların miqdarı daha çox idi. Məsələn, Yelizavetpol quberniyasının Qazax qəzasında xüsusi şəxslərin icarəyə götürdükləri əkin sahələri (1490 desyatin) dövlət və sahibkar kəndlilərinin hərracla icarəyə götürdükləri torpaqların miqdarından müvafiq olaraq 2,2 və 1,7 dəfəyədək çox olmuşdur [6, 26]. Tədqiq olunan dövrdə xüsusi torpaq sahiblərinə məxsus olan torpaq sahələrinin icarəyə verilməsinə rəsmi şəkildə qanunla yasaq qoyulmurdu. İcarəyə götürülmüş torpağın bütöv şəkildə və ya hissələrlə icarəsi icarədarla torpaq sahibi arasında şifahi razılaşma ilə götürülürdüsə xəzinə torpaqlarının icarəsi müvafiq dövlət hakimiyyət orqanları tərəfindən mütləq şəkildə sənədləşdirilməli idi. İcarədar torpaq sahələrini bütöv şəkildə və yaxud da hissə-hissə icarəyə verə bilərdi. Əgər torpaq sahələri icarədarlara şifahi razılaşma ilə icarəyə verilirdisə, xəzinə torpaqlarının icarəsi müvafiq dövlət hakimiyyət orqanları tərəfindən mütləq şəkildə sənədləşdirilməli idi [7, 43].

Torpaq sahələri əkin məqsədilə icarəyə verildikdə tərəflər arasında bağlanan müqavilədə icarədarın torpaqdan istifadə hüquqları və onun riayət etməli olduğu bir sıra şərtlər geniş şəkildə öz əksini tapmalı idi. Əgər icarədar bu və ya başqa səbəbdən əkin qaydalarından kənara çıxardısa hər bir desyatin torpaq sahəsi üçün təxminən 6 rubladək cərimə ödəməli idi [6, 19].

Aztorpaqlı və torpaqsız kəndlilər sahibkarlardan icarəyə götürdükləri torpaqlarda yaşamağa məcbur idilər. İcarə müqaviləsinin vaxtı bitdikdə torpaq sahibi icarə haqqını vaxtında ödəməyən kəndlilərdən böyük məbləğdə ziyanın ödənilməsini tələb etmək hüququna malik idi [8, 124].

İcarədar kəndlilərin icarə haqqının miqdarı torpaqların yaxınlıqda və uzaqlıqda yerləşməsindən, torpağın məhsuldarlığından, su ilə təmin edilməsindən bilavasitəvə asılı olurdu. Kəndlilər torpağa kəskin ehtiyac hiss etdiklərindən torpağı ən ağır şərtlərlə icarəyə götürməyə məcbur olurdular. Belə icarə hallarında icarə haqqının məbləğini kəndlinin torpağa olan ehtiyacı müəyyənləşdirirdi [6, 37].

Torpağın icarəyə verilməsinin əsas səbəbi iş heyvanının olmaması ilə bağlı idi. Buna görə də, kəndlilər qonşularla birlikdə qardaslıqlar yaradırdılar. Yelizavetpol quberniyasının Nuxa qəzasında kəndlilər torpağı əsasən həmkəndlilərinə icarəyə verirdilər. Bu ərazidə həmçinin ayrı-ayrı kəndlilər başqa icmalarda və xüsusi şəxslərdən torpaq icarəyə götürürdülər. Nuxa qəzasının Muxax, Daşagil, Padar kəndlərində də torpaq icarəyə götürürdülər [7, 43].

Pulla icarədən fərqli olaraq məhsulla icarə haqqı torpaq sahibinə məhsul yığımı başa çatdıqdan sonra ödənilirdi. Elə buna görə də əlində nəqd pulu olmayan kəndlilər əksər hallarda torpağı məhsulla icarəyə götürürdülər. Bu həmin dövrdə Azərbaycanın yoxsul aztorpaqlı və torpaqsız kəndlilər ölkəsi olması ilə bağlı idi.

Məhsulla icarə haqqı adətən iki cür müəyyənləşdirilirdi. İcarədar-kəndli torpaq sahibinə: a) yığım başa çatdıqdan sonra, istehsal edilmiş məhsulun qa-

baqcadan müəyyən edilmiş hissəsini; b) istehsal edilmiş məhsulun miqdarından asılı olmayaraq, müəyyən edilmiş qədər məhsul verməli idi [6, 39].

Bakı quberniyasında torpaq sahələri bir çox hallarda istehsal edilən məhsulun 1/4 – 1/2 hissəsini almaq şərtilə icarəyə verilirdi. Yelizavetpol quberniyasında əkinə yararlı torpaq sahələri məhsulun 1/20, 1/10, 1/5 hissəsini, bağ və bostanlardan ibarət torpaq sahələri məhsulun 1/4, 1/3, 1/2 bəzi hallarda isə 1/6 hissəsini torpaq sahibinə vermək şərtilə icarəyə verilirdi [16, 41].

İcarə haqqı məhsulla ödənilərkən, bir qayda olaraq torpaq sahibi ilə icarədar arasında icarənin şərtlərini özündə əks etdirən rəsmi-yazılı müqavilə bağlanmırdı. Bu da onlara icarənin şərtlərini öz xeyirlərinə dəyişməyə və kəndliləri qabaqcadan artıq məhsul ödəməyə məcbur etmək şəraiti yaradırdı.

**Pulla icarə**.Tədqiq olunan dövrdə Azərbaycanda kapıtalist münasibətlərinin inkişafı nəticəsində kəndlilər arasında gedən ictimai təbəqələşmə prosesi daha da dərinləşmiş və varlı, ortabab, yoxsul kəndli təbəqələri meydana gəlmişdi. Varlı kəndlilər öz təsərrüfatını genişləndirmək məqsədilə dövlətdən və xüsusi şəxslərdən iri torpaq sahələrini icarəyə götürürdülər. Adətən belə icarə hallarında icarə haqqı pulla ödənilirdi [6, 43].

Pulla icarə hallarında icarə haqqı məhsul toplanmamışdan əvvəl torpaq sahibinə verilməli idi. Bundan ötrü icarə qabağı kəndlinin əlində nəqd pulun olması vacib şərt idi. Belə bir imkana ancaq kəndin varlıları və qolçomaqları malik idilər. Elə buna görə də pulla icarə hallarına, əsas etibarilə, torpağı daha uzun müddətə icarəyə götürən varlı kəndlilər arasında təsadüf edilirdi [6, 43].

Digər tərəfdən torpağa olan ehtiyacın və onun qiymətinin artması ilə bağlı olaraq kəndlilər çalışırdılar ki, torpağı mümkün qədər uzun müddətə icarəyə götürsünlər. Bununla onlar icarə haqqının artmasının qarşısını almış olurdular [6, 44].

Dövlət kəndliləri tərəfindən xüsusi sahibkar torpaqlarının icarə edilməsi hallarında icarə sazişlərinin müddəti qəzalar üzrə fərqli idi. Məsələn, Göyçay qəzasında 15, Şamaxı qəzasında 10-12 və hətta 40, Nuxa qəzasında 7-12, Quba qəzasında isə 12 ilə çatırdı. Lakin İrəvan quberniyasının qəzalarda belə icarə hallarına təsadüf edilsə də bütövlükdə Şimali Azərbaycanın quberniyaları üçün uzunmüddətli icarə sazişləri xarakterik deyildi [6, 44].

Şimali Azərbaycanın həm dövlət, həm də sahibkar kəndliləri icarədarlardan təkcə əkinə yararlı torpaq sahələrini, bağları və s. deyil, otlaq, yaylaq və qışlaqları da icarəyə götürürdülər. Otlaq, yaylaq və qışlaqlar əsasən pulla icarəyə verilirdi.

Otlaqlardan alınan icarə haqqı torpaq sahələrinin çoxluğuna görə deyil, orada otarılan iri və xırdabuynuzlu mal-qaranın sayına görə müəyyən olunurdu. Ayrı-ayrı qəzalarda yaylaq və qışlaqlara olan ehtiyacdan asılı olaraq hər 100 baş mal-qara üçün icarəyə götürülmüş otlaqlara: Bakı qəzasında 5-20 rubl, Şamaxı və Göyçay qəzalarında 15 rubl, Ərəş qəzasında 6-10 rubl, Nuxa qəzasında 5-6 rubl, Naxçıvan qəzasında 20-30 rubl icarə haqqı verilirdi [6, 45].

**Qarışıq icarə**. XIX əsrin son rübündə Şimali Azərbaycanda icarə haqqının qarışıq formada ödənilməsi halları artmağa başladı [6, 47]. İcarə haqqının

qarışıq formada ödənilməsi hallarında kəndli, icarəyə götürdüyü torpağın müqabilində məhsul formasında ödədiyi icarə haqqından əlavə müəyyən qədər pul, müxtəlif bəxşişlər və s. verməli və hətta bəzi hallarda torpaq sahibinin təsərrüfatında becərmə işlərini də yerinə yetirməli idi [6, 49]. Ona görə də, belə icarə forması icarədara daha çox sərfəli olurdu.

Bir sıra hallarda kəndli icarəyə götürdüyü torpağın əvəzində mülkədarın təsərrüfatında işləməyi öz üzərinə götürürdü. Şamaxı qəzasının bəzi kəndlərində torpaq məhsulun 1/2 hissəsini almaq şərtilə icarəyə verilərkən kəndli icarəyə götürdüyü torpağa bərabər miqdarda mülkədar torpağını da əkib-becərməli idi [6, 49].

Azərbaycanın ayrı-ayrı qəzalarında qarışıq formada ödənilən icarə haqqının miqdarı yerli şəraitdən asılı olaraq müxtəlif olurdu. Məsələn, Şamaxı qəzasının Kür sahili zolağında bəzi hallarda torpaq sahibinə icarə haqqı kimi məhsulun 1/2 hissəsindən əlavə (yerli kəndlilərin "rüşvət" adlandırdığı) hər 0,3 desyatin torpaq sahəsi üçün əlavə 2 rubl verməli idi [6, 50].

Dövlət, xüsusi sahibkar və pay torpaqlarının icarə haqqı məhsul və pul qarışıq formada ödənilirdi. İslahatdan sonrakı dövrdə məhsulla icarə pulla icarədən qat-qat baha olub aztorpaqlı kəndli kütlələri arasında geniş yayılmışdı.

**Bağışlama müqavilələri.** Bu dövrdə Azərbaycanda bağışlama müqaviləsi formasından da istifadə edilmişdir. Əsasən torpaqlar hədiyyə edilirdi. Hədiyyə həm varlı təbəqədən olanlar, həm də sıravi kəndlilər tərəfindən verilirdi.

Bağışlama müqavilələri hədiyyə verən əşyanı hədiyyə alana verməklə real bağışlanma müqaviləsi üzrə vəzifəsini icra etmiş sayıla bilərdi. Bağışlama müqavilələrini tənzimləyən normalarda əksini tapan öhdəlik xarakterli hüquq və vəzifələr əsasən qarşılıqlı bağışlama müqaviləsinə münasibətdə daha açıq formada özünü biruzə verirdi. Hədiyyə verənin əsas vəzifəsi hədiyyəni verməkdir. Bu da təqdim etmə, təhvil vermə və ya çatdırılma formasında ola bilər. Əmlak hüquqlarının bağışlanması hüququ təsdiq edən sənədlərin verilməsi ilə həyata keçirilir [9, 85].

Qarşılıqlı bağışlama müqaviləsinə görə hədiyyə verənin vəzifələri vərəsəlik qaydasında onun vərəsələrinə keçirdi. Hədiyyə verən bu hüquqdan müxtəlif vəziyyətlərdə istifadə edə bilərdi [9, 86].

Hədiyyə verənə qədər nəyi isə bağışlamaq niyyəti ilə başqa şəxsə verən şəxs hədiyyə alan hədiyyəni qəbul edənədək istədiyi vaxt onu geri götürə bilərdi. Hədiyyənin pozulmuş hüququ bərpa etməsi və zərərlərini ödəmə hədiyyə verən hədiyyə alanın ondan qabaq ölməsi halı üçün bağışlanmış əşyanın hüququnu özündə saxlaya bilərdi. Hədiyyə qəbul edildikdən sonra bağışlamaqdan imtina edə bilərdi.

Hədiyyə alan hədiyyə verənin və ya onun yaxını barəsində açıq cinayət törətdikdə hədiyyə alan ailə hüquq münasibətlərinə uyğun olaraq onun üzərinə qoyulmuş vəzifələri hədiyyə verənin və onun yaxın qohumlarının biri barəsində kobudcasına pozduqda hədiyyə alan, bağışlama ilə bağlı öhdəlikləri əsassız olaraq icra etmədikdə, qarşılıqlı bağışlama müqaviləsi üzrə hədiyyə verənə bağışlamaq barəsində verdiyi vədi ləğv və onun icrasından imtina edə

bilməsi hüququ verilirdi [9, 87].

Vəd verildikdən sonra hədiyyə verənin əmlak münasibətləri bağışlamanı onun üçün son dərəcə ağır yükə çevirə biləcəyi dərəcəyə dəyişdikdə və verildikdən sonra hədiyyə verənin ailə hüquq münasibətləri əvvəllər olmamış, yaxud çox cüzi həcmdə olmuş öhdəlikləri yarandıqda qanun hədiyyə verənin imtina hüququnu həyata keçirməsini məhdudlaşdırırdı. İmtina hüququ vərəsəlik qaydasında keçirdi. Belə ki, hədiyyə verənin həmin ilin sonunadək öldüyü halda imtina hüququ qalan müddət üçün onun vərəsələrinə keçirdi. Bağışlamaqdan imtina etdikdə hədiyyə alan əgər bağışlanmış predmet onun mülkiyyətindədirsə, hədiyyəni qaytarmağa borclu olurdu [9, 88].

Əldə etdiyimiz arxiv materiallarından aydın olur ki, Yelizavetpol qəzasından Hüseyn Bayram oğlu öz oğulluğu Məmmədəli İsgəndər oğluna 300 rubl dəyərində olan üzüm bağını, Nuxa qəzasının Qutqaşen kəndində yaşayan Mehdibəy Hacıbəy Hacı Musabəy oğlu öz oğlu Süleyman bəyə 2000 rubl qiyməti olan Böyük Əmili kəndinin 11/40 hissəsindən 1/2 hissə bağışlamışdı.

**Podrat müqavilələri.** Tədqiq olunan dövrdə istifadə olunan müqavilələrdən biri də podrat müqavilələridir. Bu müqaviləyə görə podratçı müqavilədə nəzərdə tutulan işi icra etməyi, sifarişçi isə podratçıya razılaşdırılmış muzd ödəməyi öhdəsinə götürürdü [9, 229]. Podrat müqaviləsi bir tərəfdən müəyyən maddiləşmiş nəticənin yaradılması ilə müşahidə olunan istehsal prosesini tənzimləyir, digər tərəfdən isə əşyanın hazırlanması, istehsalı və ya hər hansı digər işin görülməsi onun nəticəsinin sifarişçiyə verilməsi ilə şərtləndirirdi. Podrat müqaviləsi əşyanın sifarişçinin mülkiyyətinə verilməsini nəzərdə tuturdu və müqavilə bağlanarkən əsas diqqət nəzərdə tutulan əşyanın hazırlanmasına yönəlirdi. Podrat müqaviləsi sifarişçinin fərdi maraqlarının və tələbatlarının təmin olunması üzərində qurulurdu. Müqavilə üzrə əşya həm sifarişçinin, həm də podratçının materiallarından hazırlanırdı. Podrat müqaviləsində nəzərdə tutulmuş şəkildə podratçı işlərini müəyyən risklər bahasına öz materiallarından, imkanlarından və vəsaitlərindən istifadə etməklə yerinə yetirirdi. Podratçı münasibətlərin müstəqil subyekti kimi sifarişi yerinə yetirərkən üsul və vasitələrin seçilməsində sifarişçidən asılı olmurdu. Podratçı yalnız işi lazımi qaydada yerinə yetirdiyi təqdirdə sifarişçidən muzdun tam olaraq ödənilməsini tələb edə bilərdi [9, 233].

Podrat müqaviləsi qarşılıqlı xarakter daşıyırdı. Bu müqavilə həm şifahi, həm də yazılı ola bilərdi. Podrat müqaviləsinin müddəti tərəflərin razılığı ilə müəyyən olunurdu. Tədqiq olunan müqavilə sənədlərindən aydın olur ki, Şimali Azərbaycanda podrat müqavilələrindən də istifadə edilirdi. Bu dövrdə tərəflər arasında razılaşdırılmış şəkildə bağlanmış müqavilələr əsasən satış məhsullarının qorunması, yeraltı su mənbələrinin – kəhrizin çəkilməsi [10, 1], yol salınması [11, 5] və digər işlər zamanı bağlanılırdı.

Beləliklə, tədqiqata cəlb olunmuş müqavilə sənədlərindən aydın olur ki, tarixən təşəkkül tapmış müxtəlif müqavilə münasibətləri müasir dövrdə belə aktuallığını itirməmiş, həyatın müxtəlif sahələrində istifadə olunmaqdadır.

## ƏDƏBİYYAT

1. Норбер Рулан Юридическая антропология. М.: 1999, 301 с.
2. Azərbaycan Respublikası Dövlət Tarix Arxivi, f. 170, siy. 2, iş 179
3. Azərbaycan Respublikası Dövlət Tarix Arxivi, f. 187, siy. 2, iş 179
4. Azərbaycan Respublikası Dövlət Tarix Arxivi, f. 170, siy. 2, iş 157, 26 vərəq
5. Исмаилов М. Капитализм в сельском хозяйстве Азербайджана на исходе XIX и начале XX в. Баку: АН Азерб. ССР, 1964, 305 s.
6. Həsənova L.L. İslahatdan sonrakı dövrdə Azərbaycanda torpaq icarə münasibətləri. Bakı, 1985.
7. Свод материалов по изучению экономического быта государственных крестьян Закавказского края, Тифлис: 1888, т. VI, ч.1
8. Сегаль И.Л. Крестьянское землевладение в Закавказье. Тифлис: 1912, 154 s.
9. Göyüşov R.A. Mülki hüquq. Bakı: Qanun, 2012, 500 s.
10. Azərbaycan Respublikası Dövlət Tarix Arxivi, f. 170, siy. 2, iş 1050
11. Azərbaycan Respublikası Dövlət Tarix Arxivi, f. 170, siy. 2, iş 1081


## К ВОПРОСУ О ДОГОВОРНЫХ ОТНОШЕНИЯХ В СЕВЕРНОМ АЗЕРБАЙДЖАНЕ ВО II ПОЛОВИНЕ XIX ВЕКА
**(историко-этнографический аспект)**

**Т.Г.АХМЕДОВА**


### РЕЗЮМЕ

Статья посвящена одной из малоизученных проблем азербайджанской этнографии-изучению историко-этнографических аспектов, договорных отношений во II половине XIX века в Северном Азербайджане. Впервые автором к исследованию были привлечены конкретные факты, о разнохарактерных договорах: долговых обязательствах, о купле-продаже, а также об арендных договорах.


**Ключевые слова:** долговые обязательства, договоры о купля-продаже, арендные договоры

## ON THE QUESTION OF CONTRACTUAL RELATIONS IN NORTHERN AZERBAIJAN IN THE SECOND HALF OF THE XIX CENTURY
**(the historical and ethnographic aspect)**

**T.G.AHMADOVA**


### SUMMARY

The article is devoted to one of the poorly studied problems of Azerbaijan Ethnography – the research of historical and ethnographic aspects, the contractual relations in the second half of the XIX century in Northern Azerbaijan. The author researched the specific facts on diverse treaties: debentures, purchase-sale and lease agreements.


**Key words**: debentures, purchase-sale, lease agreements